

# SƏHNƏMİZİN ƏRƏBZƏNGİSİ İDİ...

## ("Sənət fədailəri" silsiləsindən)


**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**


**Onunla neçə il öncə görüşmüşdüm. Opera teatrımızın ulduzlarından biri, 540 dəfə Ərəbzəngi rolunda səhnəyə çıxmış, gözəl-göyçək, uca boylu Gülxar xanım Həsənova ilə görüşmək, onun həm səhnədə keçən fərəhli, həm də şəxsi həyatında qəmli, kədərli anlarından xəbər tutmaq istəyirdim. Neçə il öncə İndi Gülxar xanım həyatda yoxdur. Amma onunla neçə il öncəki o söhbətlə apardığım qeydləri yazıya çevirirəm.**

Onda Gülxar xanımın yetmiş yaşı vardı. Təbii ki, yaş öz işini görmüşdü, zaman öz cizgilərini, qırışlarını ondan əsirgəməmişdi. O gözəllik üzündən, ifadəli gözlərindən qeybə çəkilməsə Həyatın neçə sərt burulğanından keçmişdi, sənətdə xoşbəxt olsa da, həyatda o qədər də bəxti gətirməmişdi-ailəsi dağılmış, yeganə övladını - Hamlet Qurbanovu kirpiyilə od götürüb böyütmüşdü. Sonralar - Hamlet Azərbaycan səhnəsinin ulduzlarından birinə çevrildi, amma tale bu dəfə də o böyük xoşbəxtliyi onun əlindən aldı. Özü kimi uca boylu, məğrur Hamleti bir neçə ayın içində yumağa döndərdi Və günlərin birində oğul dağı çəkildi sinəsinə.

Gülxar xanım Həsənova 1920-ci ildə Şəmkir rayonunun Bayramlı kəndində dünyaya göz açmışdı. Babası Hacı Həsən ağa, atası İbrahim ağa varlı-dövlətli adamlar idi. Amma rəiyyətə zülm etməyiblər. Ona görə də Sovet hakimiyyəti gələndə başqa bəyləri sürgünə göndərdikləri, incitdikləri halda, onun atasına toxunmadılar. Daha doğrusu, camaat özü buna yol vermədi. Ancaq ağa, bəy nəslindən olduğuna görə, bu ailəyə heç bir güzəşt edilmədi. Anasının təkidilə onlar Bakıya köçdülər. Gülxar Tibb texnikumuna daxil oldu, oranı bitirdi. Sonra Tibb institutuna sənəd verdi, ancaq 1-ci kursdan onu institutdan xaric etdilər. Öyrənmişdilər ki, Gülxarın babası Həmid Sultanovun babası ilə qohumdur. O vaxta kimi Gülxarın familiyası elə Sultanova idi. Və hiss edirdi ki, bu familiya ilə yaşamaq çox qorxuludur, ona baha başa gələ bilər. Bəs nə etməli? Onda təzəcə tanış olduğu Ağadadaş Qurbanov ona məsləhət gördü ki, yaşadığı kənddən onun adına familiya qeyd olunmamaqla, bir doğum haqqında şəhadətnamənin surəti, ya bir arayış gətirilsin. Belə də oldu. 1918-ci ildə anadan olmuş, amma elə körpə çağında dünyasını tərk etmiş bacısının (onun da adı Gülxar idi, sonra bu adı ona vermişdilər) şəhadətnaməsinin surətini göndərdilər. Orada belə yazılmışdı: "Gülxar İbrahim ağa qızı Hacı Həsən ağa nəvəsi". Əlbəttə, ağa, bəy nəslinin düşməni olan bir quruluşda bu cür arayış kara gəlməzdi. Ona görə də götürüb "Gülxar Həsənova" yazdılar.

Uşaqlıqdan sənətə böyük həvəsi vardı. Yaxşı səsi vardı, oxuyurdu, teatra da meylini gizlətmirdi. Texnikumda oxuyanda nəfəs alətləri orkestrində bariton çalırdı, Əli Bayramov adına qadınlar klubunda isə dram dərnəyində iştirak edirdi. Ağadadaş Qurbanov o zaman məşhur aktyor idi.

Gənc Tamaşaçılar teatrında çalışırdı . Bu teatrın əsasını yaradanlardan biri o idi. Onunla tanışlığı da elə buradan başlandı. Çox keçmədi uydular bir-birinə və Ağadadaşa qoşulub qaçdı. 1938-ci ildə Hamlet dünyaya gəldi. ...Ağadadaşın ən böyük arzusu Hamlet rolunda oynamaq idi, ona görə də bu arzusuna görə oğlunun adını Hamlet qoydu. Opera Teatrına gələnə kimi Gülxar xanım Ağadadaşla birgə Gənj Tamaşaçılar Teatrında çalışdı. Bu evlilik 1942-ci ilədək çəkdi. Ayrıldılar, Görünür, taleyin hökmü beləymiş.

Müharibə isə onun üç qardaşı döyüşlərdə həlak oldular. Nazim adlı qardaşı şair idi, elə cəbhədə şeir deyən yerdə düşmən gülləsinə tuş oldu.



**Toxunsa yurduma duyğusuz bir əl,**
**İnan ki, bir qana min qan eylərəm.**
**Sözlərim cəbhədə qatarlaşanda,**
**Qəlbimi onlara karvan eylərəm.**

Bu misralar həmin o şair qardaşının idi. Gülxar xanım onun şeirlərini, məktublarını toplamışdı, vermişdi həmyerlisi şair Səyavuş Sərxanlıya ki, nəşrə hazırlasın. Qardaşlarının dərdi onu da şair elədi.

**Bacılar qardaşla öynər hər an,**
**Qardaşsız bacının ömrü bir qışdır.**
**Üç igid qardaşım vardı bir zaman,**
**Üçü də cəbhədən qayıtmamışdır.**

Bu da onun şeiri.

Müharibə illərində həm şəfqət bacısı kimi, həm də sənət adamı kimi tez-tez döyüşçülərin yanında olurdu. Bülbül, Vera Şirye, Teyyub Dəmirov, Fatma Mehrəliyeva, Aşıq Mirzə... o, bu dəstədə Oryolda, Bryanskda çox dolaşmışdı. Hətta elə anlar olurdu ki, onların həyatı bir tükdən asılı idi. Bryanskda bir konsert zamanı Fatma Mehrəliyevanın səsi birdən-birə titrədi, xaric getdi. Baxıb görürlər ki, yaman həyəcan keçirir, Fatma xanım əliylə yuxarını göstərir. Bir alman təyyarəsi başlarının üstündən keçirmiş. Komandir dərhal "dağılışın" əmrini verdi. Xilas oldular.

Gülxar xanım Operada gözəl rollar oynayıb. Leylini, Əslini, Şahsənəmi, Ərəbzəngini. Ərəbzəngini onun ifasında görənlər deyirlər ki, Gülxar xanım əsl jəngavər idi. Ondan sonra Ərəbzəngini çoxları oynadı, pis oynamadılar, amma hamı etiraf eləyir ki, Gülxar xanımın Ərəbzəngisinə çatan olmaz. Yaşlaşanda Leylinin anasını. Və onun məlahətli səsi, gözəl ifa tərzi, aktrisalıq məharəti hamını heyran qoymuşdu. Üzeyir bəy də bu səsi bəyənmişdi. 1992-ci ilə qədər Opera teatrında çalışdı, amma o da, SSRİ xalq artisti Firəngiz Əhmədova da nəyə görəsə də teatrdan uzaqlaşdırıldılar. Bəhanələri bu oldu ki, sizə fərdi təqaüd kəsiləcək, amma gərək işdən çıxasınız, sonra yenə qayıdarsınız. Onlar da buna səmimi şəkildə inandılar. Ərizə yazdılar. Amma illər keçdi. Görəsən Gülxar xanımın operadakı fəaliyyəti kimə mane olurdu. Axı o, operada yaradılmış "Üzeyir Hacıbəyov" studiyasında böyük şövqlə yeni Leylilər, Məcnunlar hazırlayırdı.

Gülxar Həsənova həm də əsl ustad kimi cavanlardan qayğısını əsirgəmirdi. Operada Simuzər Hətəmovanın, Zeynəb Xanlarovanın, Rübabə Muradovanın, Nəzakət Məmmədovanın, Adilə Pirkukun, Rəsmiyyə Sadıqovanın, Qəndab Quliyevanın, Səkinə İsmayılovanın Leyli kimi parlamalarında onun da əməyi çox olub. Simuzər Hətəmovanı Ağdamdan gedib özü gətirmişdi. Deyir ki, Rübabə xanım filarmoniyada özünə yer tapa bilmirdi, mənim köməyimlə operaya gəldi.

Elə il olub ki, Gülxar xanım bir ay ərzində 30 dəfə leyli, Əsli, Ərəbzəngi, Şahsənəm rollarında səhnəyə çıxıb. Təsəvvür edin, o illərdə operada kimlər var idi, Həqiqət xanım Rzayeva, Əlövsət Sadıqov, Şirzad Hüseynov, Xanlar Haqverdiyev, sonralar Bakir Haşımov, Arif Babayev, Canəli Əkbərov... bu gözəl sənətkarlarla tərəfi-müqabil olmaq heç də asan deyildi.

Yazımızın əvvəlində Gülxar xanımın oğlu Hamleti yada saldıq. Bu, Gülxar xanımın ən yaralı yeri idi. Hamlet Qurbanov (biz bir yazımızı ayrıca olaraq ona həsr etmişik) doğrudan da böyük aktyor idi. Amma Gülxar xanımın dediyinə görə ona qarşı bir biganəlik vardı. Axı, sənət adamları çox həssas olurlar. Hamleti iki dəfə "Xalq artisti" adına təqdim eləmişdilər, bu adın verilməsini o, səbirsizliklə gözləyirdi. Amma hər dəfə bir "rəqibi" meydana çıxırdı. Hamlet bu dərdə dözməyib infarkt keçirdi, sonra isə amansız xəstəlik onu haqladı. Doğrudan da, insafsızlıq idi. Axı, Hamlet Qurbanov bənzərsiz sənətkar idi. "Xanuma"da Knyazı, "Əliqulu evlənir"də Əliqulunu, "Dədə Qorqud" filmindəki Qıpçaq Məliki, "Topal Teymur" tamaşasında Bayaziti (neçə tamaşada və filmdə oynadığı rolları hələ demirik) böyük ustalıqla yaratmışdı. Ulu öndər Heydər Əliyev o zaman Səməd Vurğunun "İnsan" pyesinə tamaşa edib, Hamleti alman zabiti rolunda görüb, çox bəyənib, belə bir söz deyir: "Sən elə nemessən, Hamlet"..

Bir ana kimi Hamletin son günlərində də onun yanındaydı, deyir ki, Moskvaya aparmağa pul tapa bilmədim. Onu ümumi qəbiristanlıqda dəfn elədik, elə yerdə ki, qəbirlərin arasında tərpənmək olmur.

**Səhnədə qılıncını sıyırıb "Ehey..." deyən Gülxar Həsənova-Ərəbzəngi həyatda Ərəbzəngi ola bilmədi. Amma səhnədəki Ərəbzəngisi, Leylisi, Əslisi, Şahsənəmi ilə yaddaşlardan silinmədi...**

### Çində torpaq sürüşməsi 91 nəfərin həyatına son qoydu



**Çinin cənubundakı Quandon əyalətinin Şencen şəhərində şiddətli yağışlardan sonra dekabrın 20-də baş vermiş torpaq sürüşməsi nəticəsində 91 nəfər dağıntılar altında qalıb.**

**Şencen şəhəri merinin müavini Liu Çinşen bildirib ki, sürüşmə zamanı şəhərin nisbətən yüksək olan hissəsində yerləşən sənaye parkının ərazisində 33 bina, o cümlədən 14 fabrik, 2 ofis və 1 yeməkxana binası, 3 yataqxana, 13 kiçik ölçülü tikili uçub. Yaranmış palçıq axını ərazinin böyük hissəsinə yayılıb. Hadisədən sonra ərazidən 900 nəfər təxliyyə edilib.**

**Xilasedicilər yağışlı hava şəraitində palçıqlı sahədə axtarış-xilasetmə işlərini davam etdirirlər. Hələlik 4 nəfərin xilas edildiyi bildirilir.**

**Torpaq sürüşməsinin baş verdiyi ərazidən keçən qaz kəmərində partlayış baş verib.**

**Mütəxəssislər yenidən torpaq sürüşmələrinin olacağını istisna etmirlər.**